# Polkovnik qarşısında tələb qoyan publisist

## Əli Səbrinin jurnalistlik fəaliyyəti milli təəssübkeşliyi və vətənpərvərliyi ilə diqqət çəkir

**Məni XX yüzilliyin əvvəllərində "Molla Nəsrəddin"də "Taqiyanuşzadə" təxəllüsü ilə çıxış edən publisist Əli Səbri Qasımov haqqında yazmağa vadar edən onun jurnalistlik fəaliyyətindən daha çox milli təəssübkeşliyi, vətənpərvərliyi oldu.**

Əli Camal oğlu Qasımov 1892-ci ildə Nehrəmdə dünyaya göz açıb. İlk olaraq mədrəsə təhsili alan Əli daha sonra dövrünün məşhur pedaqoq və publisisti Məmməd Tağı Sidqinin Naxçıvandakı "Məktəbi-Tərbiyə" məktəbində oxuyub.

O, Mirzə Cəlilin məsləhəti ilə 1910-cu ildə Tiflisə gəlir və Qori Müəllimlər Seminariyasına daxil olur. Seminariyada bütün müsəlman uşaqlarına ata, qardaş olan Firidun bəylə ilk görüşü haqqında illər sonra xatirələrində yazırdı: "Qori Seminariyasında oxuyurdum. Hüseyn Caviddən bir açıq məktub aldım. O yazırdı: "Firidun bəyə de ki, mən Tiflisə gəlmişəm, işsizəm! Mən açıq məktubu aparıb Firidun bəyin stolunun üstünə qoydum. Cəsarət edib, fikrini soruşmadım. Lakin bir həftə sonra Tiflisdə evlərində qonaq olduğum qohumumuz Məşədi Əsgər Bağırov mənə dedi ki, Mirzə Hüseyn (Hüseyn Cavid) işə düzəlib, müəllimdir".

Firidun bəy Köçərlinin qayğısı və köməkliyi ilə 1913-cü ildə Qori Müəllimlər Seminariyasında təhsilini başa vurub Bakıya gələn Əli müəllimliyə başlayır. Bir müddət pedaqoji fəaliyyətlə məşğul olduqdan sonra Mədən-Metallurgiya İnstitutunda ali təhsilə sahib olur.

Bu zaman Naxçıvan və Qarabağda yenidən erməni-müsəlman məsələsi baş qaldırmışdı. Ermənilərin hər gün müsəlmanlara qarşı etdikləri haqsızlıqlar Əlini Naxçıvana qayıtmağa vadar edir. Könüllü xalq dəstələrinin yaradılmasında böyük rolu olan Əli az bir zamanda böyük bir dəstənin yaradılmasına nail olur. Onun və dostlarının təşəbbüsü ilə Naxçıvanın müdafiəsi üzrə nümayəndə heyəti yaradılır. Əli Naxçıvan əhalisinin 17 maddədən ibarət tələblərini 1919-cu il sentyabrın 9-da Tiflisdə Naxçıvan və Şərur-Dərələyəz qəzasının neytral zona elan olunaraq onların ərazisində Naxçıvan general-qubernatorluğu yaradılmasını nəzərdə tutan "Haskel layihəsi"nin müəllifi, Antanta dövlətlərinin Ermənistandakı ali komissarı, amerikalı polkovnik V.Haskelə təqdim etmiş və bildirmişdi: "Əgər bu tələblər qəbul olunmasa, naxçıvanlılar öz istiqlaliyyətini əldə silah qoruyacaqlar".



Beləliklə, Naxçıvan, Ordubad, Şərur, Sürməli, Milistan, Vedibasar mahallarının əhalisi adından Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyinə göndərilən 1919-cu il 9 sentyabr tarixli sənədin hazırlanmasında, imzalanmasında və göndərilməsində Əli Səbri böyük rol oynayır. Əlinin bu üsyankar çıxışı amerikalı polkovnikin heç də ürəyincə olmur. Odur ki, 1919-cu ilin yayında ingilis hərbi hökuməti Şərur-Naxçıvan ərazisində repressiyaya başlayanda ilk həbs edilən də Əli olur. Kütləvi həbslər zamanı yüzlərlə naxçıvanlı gənc Aleksandropola (Gümrü) sürgün edildi. Sürgün həyatı nə qədər ağır keçsə də, nə Əlini, nə də onun məsləkdaşlarını inadından döndərə bildi

Əli sürgün həyatında da, ondan əvvəl və sonra da sözünü silahı ilə yanaşı qələmi ilə də deyib. Mətbuat aləminə hələ Qori Müəllimlər Seminariyasında oxuyarkən 1910-cu ildə gələn Əli Səbrinin ilk məqaləsi Haşım bəy Vəzirovun "Səda" qəzetində olub. "Səda"da çap olunan gənc sonralar "Məlumat", "İqbal", "Yeni irşad", "Şəlalə", "Molla Nəsrəddin" və s. mətbu orqanlarında müxtəlif mövzularda çıxış edən bir jurnalist, publisist kimi diqqəti cəlb edir. Əsasən ədəbiyyat və teatr mövzularına üstünlük verən Əli Qasımov "Ə.Naxçıvanlı", "Ə.Qasımov", "Ə.Camal oğlu" və "Ə.S" imzaları ilə mətbuat aləmində tanınır.

Əli Səbri bədii yaradıcılıqla da məşğul olub. "Solğun çiçək" adlı ilk kitabı 1913-cü ildə işıq üzü görüb. Tədqiqatçı alim Əziz Mirəhmədovun fikrincə, "Solğun çiçək" Azərbaycan romanı tarixində ilk addımlardan biridir.

Bir neçə dili mükəmməl bilən Əli tərcümələrini əsasən rus dilindən edib. Çexov, Dmitriyev, L.Tolstoy və Taqor yaradıcılığına müraciət edən publisist 1914-cü ildə Bakıda xeyriyyə cəmiyyətlərinin yaranmasında, inkişafında yaxından köməklik edib. Məsələn, 1914-cü ildə Bakıda A.Şərifzadə və H.Abbasovla birlikdə "Səfa" xeyriyyə cəmiyyətinin yaradılmasına kömək edib və idarə heyətinin teatr bölməsinə üzv seçilib. O, milli kadrların və yeni teart tamaşalarının hazırlanmasında yaxından iştirak edib.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Əli də bir çox qələm və məslək yoldaşları kimi mətbuatdan uzaqlaşmışdı. 1925-30-cu illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində təhsil alan Əli Səbri həmin illərdə həm də pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Ara-sıra mətbuatda çıxış edən Əli "Maarif işçisi" jurnalının bir neçə sayına redaktorluq edib.

1920-30-cu illərdə Əli Səbrinin mətbuatda çox az çap olunan məqalələrinin mövzusu yalnız teatrın təbliği, inkişafı ilə bağlıdır.1930-cu ildən 1950-ci illərin sonlarına kimi isə Əli Səbri imzasına ilə demək olar ki, rast gəlinmir. Nadir hallarda, o da yenə Azərbaycanda teatrının inkişafı ilə bağlı olan məqalələr. Zənnimcə, 1937-ci ilin xofu Əli Səbrini mətbuatdan uzaqlaşdıraraq bütün gücünü pedaqoji sahənin inkişafına yönəldib.

1960-70-ci illərdə Əli Qasımov Azərbaycan Yazıçılar İttifaqında mühüm vəzifələrdə calışmışdı. Bir müddət Azərbaycan Yazıçılar İttifaqı Ədəbi Fondunun sədri olmuş və o zaman ölkənin ən böyük nəşriyyatlarından biri olan "Azərnəşr"də redaktor, tərcüməçi işləmişdir.

Əli Səbrinin "Ömürdən yarpaq düşür" kitabı 1983-cü ildə işıq üzü görüb. Elə həmin ilin fevralında 91 yaşında Bakıda dünyasını dəyişən publisist zamanının çox hörmətli qələm sahibi olmuşdur.

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*